# Muğam qanadlarında

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə IX "Gəncliyin səsi" festivalının tədbirlər planına uyğun olaraq, 2 Fevral Azərbaycan Gəncləri Gününə həsr olunmuş çoxsaylı tədbirlər keçirilir. Bu qəbildən olan tədbirlərdən biri də Beynəlxalq Muğam Mərkəzində VIII "Muğam" Televiziya Müsabiqəsinin qaliblərinin iştirakı ilə təşkil edilmiş "Muğam axşamı" olub.**



Qeyd edək ki, Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı möhtəşəm layihələr sırasında xüsusi əhəmiyyətə malik olan muğamın təbliği son dərəcə təqdirəlayiqdir.

Dünən keçirilən "Muğam axşamı" da qədim Azərbaycan musiqisinin gözəlliyinin, dərin fəlsəfəsinin gənclərə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Son illərdə bu sahədə uğurlu addımlar atılıb, muğamın təbliği ilə bağlı görüşlər, muğam axşamları keçirilib, "Muğam-İrs" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomu nəfis şəkildə buraxılıb.

İndiyədək ölkəmizdə Heydər Əliyev Fondunun dəstəyi ilə səkkiz muğam müsabiqəsi keçirilib. VIII "Muğam" Televiziya Müsabiqəsinin final mərasimi ötən il Şuşada, Bülbülün ev-muzeyinin həyətində təşkil edilib. 2005-ci ildən etibarən keçirilən "Muğam" müsabiqəsinin ötənilki özəlliyi yarışmaya azyaşlı ifaçıların da qatılması və mükafatlar uğrunda mübarizə aparması olub. Həmin müsabiqədə azyaşlı qrup üzrə Sabir Ağayev 3-cü, Fatimə Kərimova 2-ci, Həzrət Əzizli isə 1-ci olub. Gənc xanəndələr arasında Daşqın Kürçaylı və Vüqar Əbilov 3-cü yerə, Ülkər Abdullayeva və Aynur Həsənxanova 2-ci yerə layiq görülüblər. 1-ci yerin qalibi isə Fuad Əzizzadə olub. Məftun Səfərli və Pedram Rəncbər isə həvəsləndirici mükafatla təltif edilib.

Dünən onların iştirakı ilə keçirilən "Muğam axşamı" qonaqların zövqünü yetərincə oxşayıb, onların ruhuna mənəvi qida verib. Gənc istedadların cazibədar ifası dinləyicilərdə xalqımızın bu qədim musiqi sənətinə rəğbəti daha da artırıb.

***Elçin ABBASOV, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 2 fevral.- S.7.